**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCANIN İQTİSADİ DİPLOMATİYASININ PRİORİTETLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5310.01- Dünya iqtisadiyyatı |
| Elm sahəsi: | İqtisad elmləri |
| İddiaçı: | **Kubə İlqar qızı Mehdiyeva** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Bakı Dövlət Universiteti Dünya iqtisadiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad elmləri doktoru, professor<br>**Hacıağa Baxış oğlu Rüstəmbəyov** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru, professor<br>**Elşən Mahmud oğlu Hacızadə** |
| | iqtisad üzrə fəlsəfə doktoru<br>**Emin Adil oğlu Qəribli** |
| | iqtisad üzrə fəlsəfə doktoru<br>**Əfqan Əbülfəz oğlu Musayev** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ________________ | əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor<br>**Yadulla Həmdulla oğlu Həsənli** |
| Dissertasiya şurasının elmi katibi: ________________ | iqtisad elmləri namizədi<br>**Rəşad Aktiv oğlu Hüseynov** |
| Elmi seminarın sədri: ________________ | iqtisad elmləri doktoru, professor<br>**Müşfiq Yelmar oğlu Quliyev** |

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dünyada iqtisadi məsələlər beynəlxalq münasibətlərdə getdikcə daha mühüm rol oynamaqdadır. Beynəlxalq arenada öz iqtisadi mövqeyini möhkəmləndirməyə çalışan Azərbaycan balanslaşdırılmış iqtisadi diplomatiya siyasətini inkişaf etdirir və həyata keçirir. Azərbaycanın iqtisadi diplomatiyasının əsas prioritetlərindən biri xarici investisiyaların cəlb olunmasıdır. Qloballaşma şəraitində investisiyalar uğrunda rəqabətin daha da sərtləşməsi fonunda, xarici kapitalın cəlb edilməsi və milli iqtisadiyyatın inkişafı baxımından iqtisadi diplomatiyanın əhəmiyyəti bir neçə dəfə artır. Azərbaycan neft-qaz sənayesi, turizm və sənaye istehsalı kimi zəngin və inkişaf etmiş iqtisadi sahələrə malik olmaqla, iqtisadi diplomatiya vasitəsilə xarici investorları cəlb etməyə nail olmuş və Qafqaz regionunda lider dövlətə çevrilmişdir.

Eyni zamanda, Azərbaycan ixrac imkanlarını genişləndirmək, mal və xidmətləri üçün yeni satış bazarlarına çıxış əldə etməsi istiqamətində də fəaliyyət göstərir ki, bu da ölkənin iqtisadi diplomatiyasının əsas prioritetlərindən biri hesab olunur. Azərbaycan iqtisadi diplomatiya vasitəsilə çoxtərəfli əməkdaşlığın təkmilləşdirməsi və ticarət maneələrinin aradan qaldırılması istiqamətində fəal iş aparır. Tərəfdaşlarla qarşılıqlı faydaya əsaslanan çoxfaktorlu və ikitərəfli münasibətlərin inkişafı Azərbaycanın beynəlxalq aləmdə imkanlarının genişlənməsinə töhfə verir və onu qlobal iqtisadi sistemdə əlverişli mövqeyə çıxarır. Qloballaşma - qlobal iqtisadi sistemin müxtəlif ölkə və regionlarını əhatə edən bir proses kimi hər bir dövlətin iqtisadi siyasətinə birbaşa təsir göstərir. Beynəlxalq münaqişələrin, müharibələrin və sanksiyaların artdığı dövrdə iqtisadi diplomatiya dövlətlərin xarici siyasətinin tərkib hissəsinə çevrilir. Belə ki, iqtisadi məsələlərlə bağlı aparılan danışıqlarda uğur qazanmaq ölkənin sabitliyi, rifahı və siyasi nüfuzu üçün əsas amilə çevrilir. Buna görə də, qloballaşma şəraitində Azərbaycanın iqtisadi diplomatiyasının əsas prioritetlərinin, funksiyalarının və qarşısında duran vəzifələrin müəyyənləşdirilməsi xüsusi aktuallıq kəsb edir. Azərbaycanın beynəlxalq bazarın

iştirakçısı olması və dünyanın bir çox ölkələri ilə diplomatik münasibətlər saxlaması ölkənin ümumi vəziyyətinə birbaşa təsir göstərir və iqtisadi diplomatiyanın sosial-iqtisadi nəticələrinin təhlilini zəruri edir. Bu səbəbdən, müasir elmin qarşısında duran əsas vəzifələrdən biri - iqtisadi diplomatiyanın ölkənin sosial-iqtisadi inkişafına təsirini və səmərəliliyini qiymətləndirməkdən ibarətdir.

İqtisadi diplomatiyanın elmi tədqiqinə ötən əsrin sonlarından başlanılmış və bu günədək davam etdirilir. İqtisadi diplomatiyanın mahiyyəti, istiqamətləri, ölkənin iqtisadi və siyasi vəziyyətinə təsiri və digər bir sıra görkəmli alimlərin - Hans J. Morqentau, Barri H. Stayner, S. Vulkok, N. Beyn, Donna Li, D. Hadson, L. Badel, Q.R. Berric, L.M. Kapitsa, Y.B. Kaşlev, L. Qolovataya, A.A. Lapin, N.A. Kojanov, T.V.Zonova, E.P. Babin, T.M. İsaçenko, M.Y. Apanoviç, D.A. Deqterev, D.D. Zirovçiç, R.O. Reynardt, A.Q. Savoyski, İ. Mavlanov, V.D. Şetinin, H. Rüstəmbəyov, X.A. Vəlizadə, A.K. Ələsgərov, D.B. Seyfullayev, E.İ. Əmir-İlyasova, S.Z. İsayev, R. Quliyev, Ə. Həsənov və başqalarının adı ilə bağlıdır. Bu tədqiqatçılar iqtisadi diplomatiyanın müxtəlif aspektlərini araşdıraraq əhəmiyyətli nəticələr əldə etmişlər. Lakin, müasir mərhələdə Azərbaycanın iqtisadi diplomatiyasının prioritetlərinin və funksiyalarının dərin təhlili hələ də yetərincə işlənilməmiş olaraq qalır. Bir çox elmi əsərlərdə iqtisadi diplomatiyanın formaları, beynəlxalq münasibətlərin inkişaf mərhələləri və bununla əlaqədar iqtisadi diplomatiyanın rolu, beynəlxalq bazarda mövcud problemlər və onlarla mübarizə üsulları araşdırılmışdır. Həmçinin, beynəlxalq münasibətlərin və iqtisadi diplomatiyanın tənzimlənməsi üsulları, dövlətin tənzimləmə mexanizmləri də təqdim olunmuşdur. Bu tədqiqatda da adıçəkilən işlərin nəticələrindən istifadə edilmişdir. Lakin iqtisadi diplomatiyanın və onun Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrinə təsirinin öyrənilməsinə həsr olunmuş tədqiqatların azlığı, bu sahədə xarici təcrübənin öyrənilməsini zəruri etmişdir. Hazırkı qloballaşma şəraitində Azərbaycanın iqtisadi diplomatiyasına dair problemlərin təhlili hələ də kifayət qədər əhatəli aparılmır ki, bu da tədqiqat mövzusunun müəyyən edilməsində əsas rol oynamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan Respublikasının iqtisadi diplomatiyasıdır. Tədqiqatın

predmeti isə Azərbaycanın iqtisadi diplomatiyası vasitəsilə ticarət əlaqələrinin genişləndirilməsi və xarici investisiyaların artırılması ilə bağlı prioritetlərin araşdırılmasından ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyanın əsas məqsədi-qloballaşma şəraitində Azərbaycanın iqtisadi diplomatiyasının prioritetlərini müəyyən etməkdir. Bu məqsədə nail olmaq üçün mövcud nəzəriyyə və yanaşmaların, iqtisadi diplomatiya və bu sahədə dövlət siyasəti ilə bağlı baxışların öyrənilməsi, iqtisadi diplomatiyanın ölkənin dünya bazarındakı münasibətlərinə təsirinin araşdırılması, fəaliyyətin nəticələrinin, eləcə də qloballaşma şəraitində baş verən əsas dəyişiklik və tendensiyaların təhlili tələb olunur.

Tədqiqat çərçivəsində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

– müasir iqtisadi diplomatiyanın mahiyyətini və xarakterik xüsusiyyətlərini onun nəzəri və metodoloji əsasları kontekstində açmaq;

– qloballaşma şəraitində iqtisadi diplomatiyanın beynəlxalq arenada milli maraqların qorunması üçün hansı tədbirləri həyata keçirdiyini müəyyənləşdirmək;

– Azərbaycanın çoxşaxəli iqtisadi diplomatiyasının formalaşmasına resurs potensialının təsirini təhlil etmək;

– Azərbaycanın iqtisadi diplomatiyasının institusional və funksional mexanizmlərinin rolunu öyrənmək;

– qloballaşmanın Azərbaycanın xarici ticarətinə göstərdiyi təsiri və iqtisadi diplomatiyanın bu problemlərin aradan qaldırılmasında oynadığı rolu müəyyənləşdirmək;

– qloballaşma şəraitində Azərbaycanın iqtisadi diplomatiya vasitəsilə xarici investisiyaları necə cəlb etdiyini təhlil etmək;

– sürətlə dəyişən qlobal iqtisadi mühitdə Azərbaycanın iqtisadi diplomatiyası qarşısında meydana çıxan yeni vəzifə və imkanları nəzərdən keçirmək;

– Azərbaycanın iqtisadi rəqabət qabiliyyətinin artırılması və milli iqtisadi təhlükəsizliyinin təmin olunması məqsədilə iqtisadi-diplomatik və logistika diplomatiyası ilə bağlı tövsiyyələr vermək.

**Tədqiqatın metodları**. Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Xarici İşlər və

İqtisadiyyat Nazirliklərinin, Dövlət Gömrük və Statistika Komitələrinin, eləcə də digər dövlət qurumlarının materialları, rəsmi saytları və digər resursları təşkil edir. Tədqiqat zamanı bir sıra statistik məlumatların olmaması müəyyən çətinliklər yaratmışdır. Tədqiqatın metodoloji əsasını yerli və xarici iqtisadçı alimlərin əsərləri, beynəlxalq və milli səviyyədə normativ-hüquqi aktlar, beynəlxalq konvensiyalar və xarici iqtisadi əlaqələrin tənzimlənməsi ilə bağlı çoxtərəfli sazişlər təşkil edir.

Bu tədqiqat aşağıdakı metodlara əsaslanmışdır. İqtisadi diplomatiya keyfiyyət xarakterli fəaliyyət olduğuna görə, təhlilə həm kəmiyyət göstəriciləri, həm də keyfiyyət göstəriciləri daxil edilmişdir. 1.1 və 1.2-ci paraqraflarda müşahidə və sintez əsasında iqtisadi diplomatiya ilə bağlı yerli və xarici elmi ədəbiyyatın müqayisəli təhlili aparılmışdır. 2.1-ci paraqrafda ölkəmiz tərəfindən bağlanmış iqtisadi saziş və müqavilələrin sayı təhlil edilmişdir. 2.3-cü paraqrafda isə xarici iqtisadi əlaqələrin tənzimlənməsi və ikili vergitutmanın aradan qaldırılması ilə bağlı normativ aktların müqayisəsi həyata keçirilmişdir. Statistik məlumatların işlənməsi əsasında təhlil aparılmış və iqtisadi diplomatiyanın təsirini müəyyən etmək üçün «Eviews» proqramı ilə ekonometrik analiz həyata keçirilmiş, həmçinin keyfiyyət qiymətləndirmə metodu tətbiq olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyada müdafiəyə təqdim olunan əsas müddəalar aşağıdakılardır:

– Qloballaşma şəraitində iqtisadi diplomatiya milli iqtisadi maraqların reallaşdırılmasında əsas faktora çevrilmişdir.

– İqtisadi diplomatiya ölkənin sosial-iqtisadi inkişafına və onun xarici bazarlardakı iştirakına müsbət təsir göstərir.

– İqtisadi diplomatiyanın səmərəlilik göstəriciləri və onların formalaşma mənbələri ilə bağlı statistik sistemdə problemlər mövcuddur.

– Azərbaycanın xarici iqtisadi əlaqələrinin müasir vəziyyətinin təhlili göstərir ki, dövlətin həyata keçirdiyi iqtisadi diplomatiya siyasəti dövri olaraq qlobal siyasi və iqtisadi proseslərin milli iqtisadiyyata mənfi təsirlərini aradan qaldırır və beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi istiqamətində birbaşa və dolayı

tədbirlərin həyata keçirilməsini təmin edir.

– İqtisadi diplomatiyanın milli iqtisadiyyata təsirini qiymətləndirmək məqsədilə aparılan tədqiqatlar göstərir ki, son 20 ildə Azərbaycanda effektiv iqtisadi diplomatiya nəticəsində ÜDM ilə xarici ticarət dövriyyəsi arasında stabil müsbət əlaqə formalaşmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın müəllif tərəfindən əldə edilən əsas elmi yeniliklərini aşağıdakı kimi sistemləşdirmək olar:

– İqtisadi diplomatiya anlayışının mahiyyəti və onun klassik diplomatiya, ticarət diplomatiyası, biznes diplomatiyası, kommersiya diplomatiyası, maliyyə diplomatiyası və digər diplomatiya formalarından fərqləndirən əsas xüsusiyyətləri açıqlanmışdır;

– ÜDM ilə xarici ticarət dövriyyəsi arasındakı əlaqə əsasında iqtisadi diplomatiyanın ölkənin iqtisadi inkişafına təsiri qiymətləndirilmişdir;

– İqtisadi diplomatiya institutlarının və funksiyalarının beynəlxalq səviyyədə ixtisaslaşmış qurumların tələblərinə uyğunlaşdırılması üzrə təkliflər irəli sürülmüşdür;

– Xarici investisiyaların cəlb olunması və yerli investisiyaların xaricə yönəldilməsi üçün iqtisadi diplomatiya mexanizmlərindən istifadəyə dair tövsiyələr verilmişdir;

– Azərbaycanın logistika potensialının milli iqtisadi təhlükəsizliyin təmin olunması üçün iqtisadi diplomatiyanın əsas istiqamətlərindən biri kimi istifadəsi üzrə təkliflər irəli sürülmüşdür. Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsində iqtisadi diplomatiyanın rolunun gücləndirilməsinə ehtiyac olduğu vurğulanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəticə və tövsiyyələri Azərbaycan Respublikasının Xarici İşlər və İqtisadiyyat Nazirlikləri, Dövlət Gömrük və Statistika Komitələri tərəfindən strateji sənədlərin hazırlanması və elmi tədqiqatların aparılması zamanı, həmçinin ali təhsil müəssisələrində tədris prosesində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas nəticələri və müddəaları elmi jurnallarda və konfrans materiallarında təqdim edilmişdir. Dissertasiya işinin əsas mahiyyətini özündə əks etdirən və elmi cəhətdən əsaslandırılmış 5 elmi məqalə (onlardan biri xaricdə

beynəlxalq xülasələndirilmə və indeksləmə bazasına daxil olan jurnalda), 3 tezis və beynəlxalq konfrans materialı çap edilmişdir.

**Dissertasiya işinin yerinə yetirdiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin "Dünya iqtisadiyyatı" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, 3 fəsil, 9 paraqraf, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavədən ibarətdir. Birinci fəsil 48102 işarə, ikinci fəsil 99070 işarə, üçüncü fəsil 83048 işarədən ibarətdir. Dissertasiya işinin ümumi həcmi 192 səhifə və 253315 işarə təşkil edir. Dissertasiyada 17 cədvəl, 12 diaqram, 5 şəkil, 1 qrafik və 1 sxem verilmişdir.

## DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI

**Giriş**

**I Fəsil. Müasir iqtisadi diplomatiyanın mahiyyəti və xarakterik xüsusiyyətləri**

1.1. İqtisadi diplomatiyanın nəzəri əsasları və tədqiqat metodları.

1.2. İqtisadi diplomatiya milli iqtisadi maraqların həyata keçirilməsi amili kimi.

1.3. Dünya iqtisadi münasibətlərinin qlobal sistemində iqtisadi diplomatiyanın artan rolu.

**II Fəsil. Azərbaycanın çoxşaxəli iqtisadi diplomatiyasının faktor təhlili**

2.1. Azərbaycanın çoxşaxəli iqtisadi diplomatiyasının formalaşmasında resurs potensialının təsiri.

2.2. Azərbaycanın iqtisadi diplomatiyasının institutları və funksional mexanizmləri.

2.3. Azərbaycanın xarici iqtisadi siyasətində iqtisadi diplomatiya komponentinin formalaşması və inkişafında dövlətin rolu.

**III Fəsil. İqtisadi diplomatiya və Azərbaycanın xarici iqtisadi əlaqələrinin səmərəliliyi arasında qarşılıqlı əlaqə.**

3.1. Azərbaycanın iqtisadiyyatının rəqabətqabiliyyətinin artırılmasında iqtisadi-diplomatik aspektlər.

3.2. Azərbaycanın iqtisadi inkişafında prosesində iqtisadi diplomatiyanın investisiya komponenti

3.3. Azərbaycanın logistik potensialı və onun iqtisadi diplomatiyada ölkənin milli iqtisadi təhlükəsizliyin təminində rolu.

**Nəticə**

**İstifadə olunmuş ədəbiyyat**

**Əlavələr**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS MÜDDƏALAR

**1. Qloballaşma şəraitində iqtisadi diplomatiya milli iqtisadi maraqların həyata keçirilməsinin əsas amilinə çevrilir.**

İqtisadi diplomatiya beynəlxalq fəaliyyətin nisbətən yeni sahəsi hesab olunur. Ədəbiyyatın təhlili zamanı müəyyən edilmişdir ki, "iqtisadi diplomatiya" anlayışının müxtəlif tərifləri və yanaşmaları mövcuddur. Əvvəllər bu anlayış klassik diplomatiya ilə eyniləşdirilir və iqtisadi diplomatiya ölkələr arasında iqtisadi məsələlərə yönəlmiş diplomatik fəaliyyət sahəsi kimi xarakterizə olunurdu[1,2]. Əsas diqqət ticarət, investisiyalar və digər qarşılıqlı iqtisadi əlaqələrin təşviqinə yönəldilirdi. Zaman keçdikcə bu sahənin fərqli cəhətləri daha aydın şəkildə üzə çıxmağa başladı. İqtisadi diplomatiyanın miqyasının genişlənməsi, iqtisadi amillərin beynəlxalq münasibətlərin və geosiyasi dinamikaların formalaşmasında əsas rol oynadığının qəbul edilməsinin göstəricisidir. Ölkələr öz iqtisadi maraqlarını qorumağa çalışdıqları üçün qlobal iqtisadi sistemin mürəkkəbliyini aradan qaldırmaq məqsədilə diplomatik alətlərə və strategiyalara daha çox müraciət edirlər.

İqtisadi diplomatiya qlobal iqtisadi problemlərin həllində və ölkələr arasında əməkdaşlığın inkişafında həyati əhəmiyyət daşıyır. İqlim dəyişikliyi, enerji təhlükəsizliyi və maliyyə sabitliyi kimi problemlər birgə səylər və koordinasiyalı fəaliyyət tələb edir ki, bu da milli sərhədləri aşan məsələlərin həllində iqtisadi diplomatiyanın

---

[1] Giles, K. Discourses of Economic Diplomacy: The Historical Setting. Diplomacy & Statecraft. / K.Giles, J. M.Evans, – 1998, 9(1). – p. 1-32., p.3

[2] Мехтиева, К. Теория и практика экономической дипломатии в современных условиях// İPƏK YOLU. – 2021. No.1, – c.79-90, c.80

vacibliyini vurğulayır[2,3]. Zamanla iqtisadi diplomatiya təkcə ticarət deyil, eyni zamanda sahibkarlığın inkişafı, innovasiya və texnoloji əməkdaşlıq strategiyalarını da əhatə edən daha geniş fəaliyyət sahəsinə çevrilmişdir[4]. Bu geniş yanaşma, iqtisadi amillərlə beynəlxalq münasibətlər arasındakı mürəkkəb qarşılıqlı əlaqəni əks etdirir, bu isə daha çox ticarət sahəsində özünü göstərir. Bununla yanaşı, iqtisadi diplomatiya təkcə ticarətlə məhdudlaşmır. O, həmçinin birbaşa xarici investisiyaların təşviqi və cəlbi istiqamətində də fəaliyyət göstərir. Dövlətlər xarici investorların cəlb olunması üçün fəal şəkildə diplomatik fəaliyyətlərə qoşulurlar. Bu, cəlbedici investisiya mühitinin formalaşdırılmasında iqtisadi diplomatiyanın rolunu və əhəmiyyətini bir daha göstərir.

Regional iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafında iqtisadi diplomatiyanın rolu getdikcə daha da aktivləşir. Rəqəmsal platformalar isə dialoq, danışıqlar və ticarətə dəstək üçün yeni kanallar təqdim edir. Müasir dünyanın texnoloji transformasiyası şəraitində iqtisadi diplomatiyanın əhəmiyyəti artır — bu isə xüsusilə onlayn ticarətin təşviqi, rəqəmsal kommersiya sektorunun inkişafı və ölkələr arasında iqtisadi tərəfdaşlığın möhkəmləndirilməsi baxımından mühüm rol oynayır.

İqtisadi diplomatiya həmçinin aşağıdakı müxtəlif istiqamətlər üzrə təhlil edilir və izah olunur: beynəlxalq münasibətlər və xarici iqtisadi əlaqələr, milli, o cümlədən iqtisadi təhlükəsizlik; iqtisadi məqsədlər və dövlətlərin maraqları; sosial-iqtisadi inkişafın əsas problemlərinin həlli. İqtisadi diplomatiya çərçivəsində dörd əsas fəaliyyət istiqaməti müəyyən edilir: informasiya-analitik təhlil, siyasi və normativ tənzimləmə, texniki və məsləhətverici dəstək, eləcə də maliyyə-kredit mexanizmləri[5]. Eyni zamanda, BMT informasiya,

---

[3] Cooper, A F. Diplomatic Realities and Foreign Aid Policy: Diplomatic Norms and Aid Diplomacy of the Major DAC Donor Countries. / A F.Cooper, G.W.Gunn. – Springer. –2016.

[4] Fues, T. Economic Diplomacy: A Conceptual Development. / T. Fues, C. Perez. Shaping Globalization - Civil Society, Cultural Power, and Threefolding. – Springer. –2011. –pp. 169-192.

[5] Экономическая дипломатия в условиях глобализации / под ред Л.М.Капицы. – М.: МГИМО. – 2010. – 623 с.

texniki, məsləhət və maliyyə elementlərini sahə kimi deyil, fəaliyyət formaları kimi qəbul edir.

Yerli və xarici alimlərin iqtisadi diplomatiya anlayışları kimi müxtəlif istiqamətlərə dair verdikləri tərifləri araşdırdıqda, həm uyğunluq, həm də fərqliliklər aşkar edilmişdir. Məlum olmuşdur ki, iqtisadi diplomatiyanın geniş və dar təsnifatında vahid baxış yoxdur. Bəzi mütəxəssislər bunu milli maraqların qorunması, malların və xidmətlərin təşviqi və mövqelərin möhkəmləndirilməsi vasitəsi sayır, digərləri isə iqtisadi diplomatiyanı müxtəlif sahələri milli maraqlar istiqamətində transformasiya etmək mexanizmi kimi qiymətləndirirlər.

Müasir iqtisadi diplomatiyanı dinamik, açıq və müxtəlif alətlər və strategiyalar toplusu kimi xarakterizə etmək olar. Onun hədəfli xarakteri və qlobal iqtisadiyyatda iştirak variantlarının genişliyi ölkələrin aktiv rol almasına imkan verir.

Region ölkələrinin müqayisəli təhlili göstərdi ki, həm Azərbaycan, həm də qonşu region ölkələri inteqrasiya sahəsində əhəmiyyətli uğurlar əldə ediblər. Lakin Azərbaycanın başlanğıc göstəricisi Rusiya və Türkiyə ilə müqayisədə daha aşağı idi. Bu ölkələr 2000-2020-ci illərdə qloballaşma indeksində lider olublar. Rusiyaya və İrana tətbiq olunmuş sanksiyalar nəticəsində regionda inteqrasiya və qloballaşma prosesləri kifayət qədər sürətli inkişaf etməmişdir. İran isə bu baxımdan ən zəif nəticə göstərmişdir. Belə hallarda Azərbaycan iqtisadi diplomatiyanı öz lehinə istifadə etməyə imkan əldə etmişdir.

KOF iqtisadi qloballaşma indeksinin Azərbaycana və beş qonşu ölkəyə (Türkiyə, Rusiya, Gürcüstan, Ermənistan, İran) dair müqayisəli analizi göstərdi ki, Azərbaycanda başlanğıc baza göstəricisi aşağı olsa da, sonradan yüksək nəticəyə nail olub, hətta Türkiyə və İrandan da öndədir. Gürcüstan və Ermənistan da xarici sərmayələr və iqtisadiyyatlarının liberallaşdırılması sayəsində yüksək inkişaf səviyyəsi nümayiş etdiriblər. Nəticə olaraq deyə bilərik ki, Azərbaycan, qlobal inteqrasiya indeksində əhəmiyyətli artıma nail olsa da, gələcək inkişaf üçün qeyri-neft sektorunun və digər biznes sahələrinin inkişafını təmin edəcək dərin iqtisadi islahatlara ehtiyac duyulur.




*Mənbə:*https://kof.ethz.ch/en/forecasts-and-indicators/indicators/kof-globalisation-index.html

**Şəkil 1. Azərbaycanda İqtisadi Qloballaşma İndeksi (KOF) və onun tərkib hissələri**

Ticarət və maliyyə qloballaşması indeksinin ətraflı müqayisəli təhlili göstərir ki, Azərbaycan ticarət və maliyyə qloballaşması sahəsində müsbət dinamika nümayiş etdirir. 2000–2020-ci illər ərzində Azərbaycan ticarət qloballaşması indeksində əhəmiyyətli irəliləyiş əldə etmiş, Rusiya və Türkiyəni, həmçinin xeyli dərəcədə İranı geridə qoymuşdur. Enerji resurslarının ixracı səbəbilə Azərbaycan ticarət qloballaşması sahəsində maliyyə qloballaşması ilə müqayisədə daha yüksək göstəricilər nümayiş etdirir. Hərçənd Azərbaycan regional kontekstdə yaxşı nəticələr göstərir, lakin bu göstəricilər üzrə Cənubi Qafqaz qonşuları ilə müqayisədə daha da irəliləməyə ehtiyac duyulur. Bu vəziyyəti aradan qaldırmaq üçün Azərbaycana maliyyə sektorunun

inkişafı və qeyri-enerji sahələrinə investisiyaların cəlbi məqsədilə daha səmərəli iqtisadi diplomatiya tətbiq etməsi zəruridir.

İqtisadi diplomatiya müxtəlif səviyyələrdə – meqa, mezo, makro və mikro səviyyələrdə fəaliyyət göstərir və müxtəlif problemlərin həlli üçün çoxtərəfli və ikitərəfli proseslər formasını ala bilər, həmçinin aşağıdakı məsələlərin həyata keçirilməsinə yönəldilir:

– Qloballaşan dünya nizamı fonunda ölkələrin milli maraqlarını yenidən qiymətləndirməsi zərurəti yaranır. Bu isə öz növbəsində, iqtisadi diplomatiyanın prioritetlərinin müəyyənləşdirilməsi və həmin maraqların irəli sürülməsi və qorunması üçün yeni strategiyaların hazırlanmasını nəzərdə tutur;

– İqtisadi fayda gətirən, eyni zamanda milli maraqların qorunmasını təmin edən əməkdaşlıq və tərəfdaşlıq imkanlarının müəyyənləşdirilməsi;

– Beynəlxalq iqtisadi təşkilatların (BİT) normativ-hüquqi bazasına diplomatik kanallar vasitəsilə təsir göstərmək. Bu qaydaların formalaşdırılmasında iştirak etməklə ölkələr milli maraqlarına və iqtisadi məqsədlərinə uyğun siyasətləri müdafiə edə bilərlər;

– Milli iqtisadi siyasətə təsir göstərə biləcək xarici mühit və orada baş verən dəyişikliklər barədə dövlət orqanlarını dəqiq və vaxtında məlumatla təmin etmək;

– Resursların ölkəyə cəlb olunması və milli resurslardan səmərəli istifadə edilməklə ticarət, investisiya, vergi və digər iqtisadi fəaliyyətlər üçün əlverişli şəraitin yaradılması. Bu, sərfəli ticarət razılaşmalarının əldə edilməsini, xarici investisiyaların cəlb olunmasını və iqtisadi artıma dəstəyi, həmçinin milli təhlükəsizlik və maraqların qorunmasını əhatə edir;

– Diplomatik səylərə dəstək üçün maliyyə, təşkilati, texniki və insan resurslarının ayrılması imkanları, o cümlədən müxtəlif sahələr üzrə ekspertlərin cəlb olunması[6].

Dünya təcrübəsinin göstərdiyi kimi, iqtisadi diplomatiyanın artımına təkan verən əsas amillərdən biri dünya iqtisadi mərkəzlərinin dəyişməsidir. Son illər ərzində iqtisadi gücün ənənəvi mərkəzlərdən -

---

[6] Мехтиева, К. Теория и практика экономической дипломатии в современных условиях// İPƏK YOLU. – 2021. No.1, – c.79-90

Avropa və ABŞ iqtisadiyyatlarından Çin, Hindistan və BRİCS ölkələri kimi inkişaf etməkdə olan iqtisadiyyatlara doğru tədricən yerdəyişməsi müşahidə olunur. Bu dəyişikliklər dövlətdən beynəlxalq müstəvidə daha aktiv və çevik siyasət rejimi tələb edir ki, bu da öz növbəsində milli maraqların qorunması və təşviqi üçün iqtisadi diplomatiyadan bir alət kimi istifadə edilməsinin zəruriliyini doğurur.

**2. İqtisadi diplomatiya ölkənin sosial-iqtisadi inkişafına və xarici bazarlarda iştirakına müsbət təsir göstərir.**

İqtisadi diplomatiyanı yalnız beynəlxalq münasibətlərdə iqtisadi təsir mexanizmlərinin istifadəsi kimi dəyərləndirmək olmaz. Əldə olunma vasitələrindən asılı olmayaraq, iqtisadi fayda əldə etməyə yönəlmiş səylər iqtisadi diplomatiyanı səciyyələndirən əsas xüsusiyyətdir. Qeyd edilməlidir ki, iqtisadi diplomatiya nə qədər çox funksiya yerinə yetirirsə, bir o qədər çox alətə malik olmalıdır. Digər tərəfdən, iqtisadi diplomatiya dövlətin digər ölkələr, ictimai təşkilatlar və biznes dairələri ilə qarşılıqlı əlaqəsini təmin edən funksiyalarından biri olaraq getdikcə daha kompleks və sistemli xarakter alır. Dünyada və regionda mövcud vəziyyətdən asılı olaraq dövlət iqtisadi diplomatiya qarşısında müəyyən funksiyalar qoyur. Müasir iqtisadi diplomatiya aşağıdakı əsas funksiyaları yerinə yetirir: qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq üçün şəraitin yaradılması, əməkdaşlıq formalarının genişləndirilməsinə dəstək verilməsi, dövlətin, müəssisələrin və sahibkarların iqtisadi maraqlarının qorunması[7]. Digər əhəmiyyətli funksiyalarından biri də qarşılıqlı iqtisadi əlaqələrdə iştirak edən strukturlara (səfirliklər, nazirliklər, sahibkarlar və s.) dəstək vermək məqsədilə təşviqedici alətlərin (marketinq, məsləhət, informasiya-analitik və s.) genişləndirilməsidir.

Siyasi və iqtisadi prioritetlərdən asılı olaraq, iqtisadi diplomatiya qarşılıqlı əlaqəni və əməkdaşlığı gücləndirə və ya zəiflədə bilər. Problemlərin həll yollarının təhlili göstərir ki, iqtisadi diplomatiyanın məhdudlaşdırıcı və təşviqedici formaları mövcuddur. Müasir iqtisadi diplomatiyanın fərqləndirici xüsusiyyətləri dinamizm, açıqlıq, geniş alətlər spektri, hücum xarakterli olması və çoxvariantlı yanaşmadır.

[7] Батурин, Л. М. Экономическая дипломатия в мировой политике: история и современность// Вестник ЮУрГУ. Серия «Социально-гуманитарные науки». – 2014. – т. 14, № 3.

Müasir dövr dünya nizamındakı qüvvələr balansının dəyişməsi ilə xarakterizə olunur və bu dəyişikliklər iqtisadi diplomatiyanın xarici siyasətə dəstək funksiyasını həyata keçirməsini tələb edir. Mövcud vəziyyətdən, strateji məqsədlərdən və prioritetlərdən asılı olaraq iqtisadi siyasətin istiqamətləri və mexanizmləri dəyişir. İqtisadi siyasətin qarşıya qoyduğu məqsədlər də seçilmiş istiqamətdən asılıdır. İqtisadi diplomatiyanın istiqamətinin seçilməsi isə təsadüfi deyil, müəyyən prinsiplərə əsaslanır.

Azərbaycan müstəqillik qazandıqdan sonra dövlət səviyyəsində bir çox normativ-hüquqi aktlar qəbul edilmişdir ki, bunlar resursların istifadəsinin şərtlərini, tənzimlənməsini və prosedurlarını müəyyən edir. Yalnız 2001–2023-cü illər ərzində 750-dən artıq normativ-hüquqi akt memorandumlara, 103 akt resurslardan istifadənin tənzimlənməsinə, 95 akt isə bu sahədə qəbul edilmiş strategiyalarla bağlı olmuşdur.

Dövlətlərarası münasibətlərin inkişaf mənzərəsini təqdim edərkən, iqtisadi diplomatiya qarşıdurma içində olan tərəfləri dünya iqtisadi proseslərinə cəlb edən mexanizm kimi çıxış edir və beləliklə çoxtərəfli münaqişələrin həllini hədəfləyir. Siyasi və iqtisadi maraqların regional, bəzən isə hətta qitə miqyasında uzlaşdırılması prosesi gedir. Rəqabətli mübarizədə yalnız dövlətlər deyil, eyni zamanda alyanslar, beynəlxalq təşkilatlar və digər qurumlar da fəal iştirak edərək, iqtisadi diplomatiyanın iştirakçılarına çevrilirlər. Məhz maraqlı tərəflərin idarəetmə strukturlarının diplomatik potensialı və bu potensialdan səmərəli istifadə etmək bacarığı danışıqlar prosesində nəticənin əldə olunmasını təmin edir. Məsələn, Türkiyə Balkanlarda, Qafqazda, Mərkəzi Asiyada və Yaxın Şərqdə "sülh kəməri" adlanan iqtisadi diplomatiya vasitəsilə Avrasiya materiki üçün qarşılıqlı faydalılıq prinsipinə əsaslanan yeni oyun qaydaları müəyyən edir. İkinci nümunə isə Dağlıq Qarabağ probleminin həllidir. 2020-ci ildə baş vermiş 44 günlük müharibədən sonra iqtisadi diplomatiya vasitəsilə həll yolu axtarılır.

Hazırda Azərbaycan öz maraqlarını həyata keçirməyə çalışır, eyni zamanda dünya inkişafının aparıcı tendensiyalarına uyğun hərəkət edir və beynəlxalq ictimaiyyətin maraqlarını nəzərə alır. Qlobal iqtisadiyyatın maliyyə, ticarət, informasiya və enerji istiqamətlərinin

ayrılması göstərir ki, bu istiqamətlər müxtəlif ölkələrin resurs bazası üzərində qurulur. Ölkənin təbii resurslarının istismarı layihələri Avropa və Asiya ölkələri ilə iqtisadi diplomatiyanın inkişafına təkan vermişdir. İqtisadi diplomatiya sahəsində təcrübəsini və əlverişli coğrafi mövqeyini istifadə edən Azərbaycan Mərkəzi Asiyadan Avropaya yanacaq-enerji resurslarının tranziti üçün etibarlı nəqliyyat dəhlizinin təşəbbüskarı olmuşdur.

Ermənistan tərəfindən Azərbaycanın ərazilərini işğal etdiyi dövrdə xarici siyasətin əsas istiqaməti informasiya sahəsi olub, hansı ki, dünya ictimaiyyətinə Qarabağın Azərbaycan torpaqları olması haqqında məlumatı çatdırırdı. Ancaq əsas ərazilər azad olunduqdan sonra ölkənin prioriteti həmin ərazilərin bərpası və iqtisadi əlaqələrin gücləndirilməsi olub ki, bu da iqtisadi diplomatiyanı ön plana çıxarır. Azərbaycan əsasən Avstriya, İsveçrə, Türkiyə, Qazaxıstan, Malayziya kimi müasir regional maliyyə mərkəzləri ilə iqtisadi əlaqələri yenidən qurmaq üçün səylər göstərir. Azərbaycanın iqtisadi diplomatiyasının əsas prioriteti — ölkənin mövcud potensialının real qiymətləndirilməsi və obyektiv rəqabət üstünlüklərindən maksimum dərəcədə faydalanma mexanizmlərinin hazırlanmasıdır. Bu üstünlüklər, ilk növbədə, faktor üstünlükləri ilə bağlıdır. Azərbaycanın milli maraqları nəzərə alınaraq, iqtisadi diplomatiyanın ilk addımı ölkənin sənayesinin və nəqliyyatının inkişafında regionun lideri statusunun təmin edilməsi idisə, ikinci addım maliyyə kapitalının ölkəyə cəlb olunması, yəni Azərbaycanın regionun maliyyə mərkəzinə çevrilməsi üçün ilkin imkanların yaradılmasıdır. "Əsrin müqaviləsi" nin bağlanması yalnız enerji ehtiyatlarına görə baş tutmamışdır, onun reallaşması üçün beynəlxalq səviyyədə etimad münasibətlərinin yaradılması istiqamətində ciddi iş aparılmışdır. Azərbaycanın Mərkəzi Asiya, MDB ölkələri, ərəb-islam dünyası, Cənub-Şərqi Avropa, Avropa İttifaqı, Asiya, Şimali və Cənubi Amerika, Afrika ilə ikitərəfli və çoxtərəfli münasibətləri qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq prinsipləri üzərində inkişaf edir. Artıq iqtisadi diplomatiyanın qlobal problemlərin həllində fəal iştirak etməsinin zəruriliyi geniş şəkildə dərk olunur və onun əsas məqsədinin dayanıqlı qlobal iqtisadi artımın təmin edilməsi olduğu qəbul edilir. Qonşu ölkələrlə hərtərəfli əməkdaşlıq isə ikitərəfli münasibətlərin inkişafında prioritet istiqamətlərdən biri kimi çıxış edir.




***Mənbə:*** müəllif tərəfindən stat.gov.az və e-qanun.az saytlarının məlumatları əsasında tərtib edilmişdir

**Diaqram 1. İqtisadi diplomatiyanın Azərbaycanın ixrac və idxalına təsirinin qrafik təsviri**

Uğurlu iqtisadi diplomatiyanın nəticəsi olaraq ÜDM yalnız neft sektorunda deyil, həm də qeyri-neft sektorunda da artıb:

1. 2000-2005-ci illər üzrə: neft-qaz sektorunda ÜDM həcmi 15 263,5 milyon manat, qeyri-neft sektorunda isə 25 724 milyon manat təşkil edib. 2005-ci ildə 2000-ci illə müqayisədə neft-qaz sektorunda ÜDM 4,03 dəfə, qeyri-neft sektorunda isə 1,98 dəfə artıb;

2. 2005-2011-ci illər üzrə: neft-qaz sektorunda ÜDM 116 083,1 milyon manat, qeyri-neft sektorunda isə 98 559,6 milyon manat olub. 2011-ci ildə 2005-ci illə müqayisədə neft-qaz sektorunda ÜDM 4,16 dəfə, qeyri-neft sektorunda isə 3,83 dəfə

artıb;

3. 2011-2022-ci illər üzrə: neft-qaz sektorunda ÜDM 335 133,7 milyon manat, qeyri-neft sektorunda isə 468 287,5 milyon manat təşkil edib. 2022-ci ildə 2011-ci illə müqayisədə neft-qaz sektorunda ÜDM 2,42 dəfə, qeyri-neft sektorunda isə 2,65 dəfə artıb;

4. 2011-2024-cü illər üzrə: neft-qaz sektorunda ÜDM 416 047,7 milyon manat, qeyri-neft sektorunda isə 613 106,1 milyon manat olub. 2024-cü ildə 2011-ci illə müqayisədə neft-qaz sektorunda ÜDM 1,5 dəfə, qeyri-neft sektorunda isə 3,25 dəfə artıb.

Qonşu dövlətlərlə ikitərəfli əməkdaşlıq üçtərəfli formatlarda da regional əməkdaşlıq mexanizmi kimi davam edir. Ölkənin MDB və İqtisadi Əməkdaşlıq Təşkilatı kimi qurumlarda iştirakı, Ərəb Dövlətləri Liqası, Afrika İttifaqı və Amerika Dövlətləri Təşkilatında müşahidəçi statusu əldə etməsi, Şanxay Əməkdaşlıq Təşkilatı ilə tərəfdaşlıq münasibətləri, eləcə də Avropa İttifaqı ilə institusional əməkdaşlığı — bütün bunlar ikitərəfli əlaqələr sistemi kimi dəyərləndirilir. Avropa İttifaqının strateji tərəfdaşlıq sazişi bağlamaq təşəbbüsü isə bu münasibətlərin çoxtərəfli əməkdaşlıq formatına keçidi üçün yeni perspektivlər açır.

**3. İqtisadi diplomatiyanın nəticələrinin statistik göstəricilərində və onların formalaşma mənbələrində problemlər mövcuddur.**

İqtisadi diplomatiyanın nəticələrinin təhlili zamanı UNCTAD və Mərkəzi Bankın hesabatlarındakı rəqəmlərin fərqlənməsi problemi üzə çıxıb. UNCTAD-ın məlumatına görə, Azərbaycanın xaricə qoyduğu birbaşa investisiyalar 26,825 milyard dollar təşkil edir, halbuki Mərkəzi Bankın hesabatında bu göstərici 1,244 milyard dollar göstərilib. Bu fərqin hesablanma metodologiyası ilə əlaqəli olduğu güman edilir. Son üç ildə qlobal iqtisadi mühitdə belə fərqliliklərin aradan qaldırılması üçün vahid metodologiya hazırlanması istiqamətində səylər göstərilir. Lakin milli statistika bazasında, o cümlədən Mərkəzi Bankın statistikasında hələ də məlumat çatışmazlığı mövcuddur. Məsələn, Mərkəzi Bankın hesabatlarında göstərilir ki, 2019-cu ildə

Azərbaycanın xaricə yatırdığı 2,432 milyard dollarlıq investisiyaların 40,3%-i (978,8 milyon dollar) neft-qaz sektoruna aiddir, qalan 59,7%-i isə digər sahələrə yatırılmışdır. 2018-ci illə müqayisədə 2019-cu ildə xaricdəki investisiyalar 38,1% artıb, neft sektoruna yatırılan investisiyalar isə 54,5%, qeyri-neft sektoruna isə yalnız 28,9% artıb. 2010-2020-ci illər üzrə analiz göstərir ki, Azərbaycanın xaricə qoyduğu birbaşa investisiyaların yalnız 30%-i neft sektoruna, 70%-i isə digər sahələrə aiddir[8]. Lakin Mərkəzi Bank və Dövlət Statistika Komitəsinin açıq hesabatlarında xarici iqtisadiyyatda investisiyaların konkret hansı sahələrə qoyulduğu barədə ətraflı məlumat yoxdur ki, bu da həmin investisiyalardan gələn gəlirlərinin amillər üzrə və digər təhlilinə mane olur. İnvestisiya diplomatiyası sayəsində 2010-2020-ci illərdə Azərbaycan şirkətləri xaricdə 26 milyard dollardan çox sərmayə yatırmağı bacarıblar. 2020-ci ilin sonuna Azərbaycan rezidentlərinin xaricdəki kapitalı 26,825 milyard dollar təşkil edib ki, bu da 2010-cu illə müqayisədə 4,6 dəfə çoxdur. Ən yüksək göstərici 2015-ci ildə qeydə alınıb. Lakin ölkəyə xarici investisiyaların artmasına baxmayaraq, 2015-ci ildən sonra xaricdə yatırılan investisiyaların həcmi azalmağa başlayıb.

**Cədvəl 1**

**Xaricə yönəldilmiş birbaşa investisiyalar, milyard dollar**

| | 2010 | 2015 | 2016 | 2018 | 2019 | 2020 | 2021 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Xaricə qoyulan birbaşa investisiyalar | -0.2 | 3.3 | 2.6 | 1.8 | 2.4 | 0.8 | 0,1 | 3.1 |
| İnvestisiyaların repatriasiyası | -2.8 | -3.4 | -2.8 | -3.2 | -3.2 | -4.5 | -7.0 | -6.7 |

***Mənbə:*** AMB məlumatları əsasında müəllif tərəfindən tərtib edilmiş cədvəl (02.02.2025), https://www.cbar.az/page-43/external-sector-statistics

[8] https://unctad.org/system/files/official-document/wir2022_overview_en.pdf. [Электронный ресурс] / World Investment Report. –2022.

**Cədvəl 2**

**Azərbaycanın xarici ölkələrə investisiyaları, % ilə**

| | 2019 | 2020 | 2021 | 2019/2021 | 2023 | 2021/2023 Artım//azalma |
|---|---|---|---|---|---|---|
| Xaricə investisiyaların həcmi, milyard dollar | 2,602 | 1244 | 0.826 | ↓ | 3,117 | ↑ |
| Türkiyə | 32.1 | 26.9 | 34.0 | ↑ | 58.2 | ↑ |
| ABŞ | 2.0 | 13.8 | 8.0 | ↓ | 10.0 | ↑ |
| Lüksemburq | 12.2 | 9.9 | - | ↓ | - | ↓ |
| Monteneqro | 7.3 | 8.2 | 2.5 | ↓ | - | ↓ |
| Rusiya Federasiyası | 5.4 | 7.6 | 2.4 | ↓ | 2.9 | ↑ |
| Avstriya | 5.1 | 7.5 | 0.6 | ↓ | - | ↓ |
| Malta | 4.0 | 6.7 | 5.9 | ↓ | - | ↓ |
| Bəhreyn | - | 3.6 | - | ↓ | - | ↓ |
| Böyük Britaniya | 9.8 | 3.6 | 14.8 | ↑ | 5.0 | ↓ |
| Gürcüstan | 2.9 | 3.1 | 7.8 | ↑ | 2.8 | ↓ |
| İsveçrə | 1,2 | 2.8 | 3.5 | ↑ | 1.3 | ↓ |
| BƏƏ | 0.7 | 1,1 | 0.9 | ↑ | 3.0 | ↑ |
| Sinqapur | 3.4 | 0.9 | 0.9 | ↑ | 0.4 | ↓ |
| Hollandiya | 3.0 | 0.9 | 1,1 | ↑ | 3.2 | ↑ |
| Lixtenşteyn | - | 0.7 | - | ↓ | - | ↓ |
| Ukrayna | 0,1 | 0.7 | 2,2 | ↑ | 0.8 | ↓ |
| Almaniya | 0.3 | 0.2 | 2.1 | ↑ | 1.3 | ↓ |
| İsrail | - | 0.2 | - | ↓ | 0,1 | ↓ |
| Kipr | 0.2 | 0.2 | - | ↓ | - | ↓ |
| Qazaxıstan | 0.2 | 0.2 | - | ↓ | 0.2 | = |
| İtaliya | 0,1 | 0,1 | 0.7 | ↑ | 1,1 | ↑ |
| Man adası | - | 0,1 | - | ↓ | - | ↓ |
| İspaniya | 0,1 | 0,1 | 0.4 | ↑ | 0.8 | ↑ |
| Moldova | - | 0,1 | - | ↓ | - | ↓ |
| Sent Lusiya | - | 0,1 | - | ↓ | - | ↓ |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Cədvəl 2-nin ardı** | | | | | | |
| Kanada | - | 0,1 | 0.3 | ↑ | 0.3 | = |
| Fransa | - | 0,1 | 0.4 | ↑ | 0.6 | ↑ |
| Özbəkistan | 0,1 | 0,1 | 1.0 | ↑ | 0.7 | ↓ |
| Çex Respublikası | - | 0,1 | 0.5 | ↑ | 0.4 | ↓ |
| Çin | - | 0.01 | 0.5 | ↑ | 0.2 | ↓ |
| Honq Konq, S.A.R. Çinin | - | - | 1.0 | ↑ | 2.6 | ↑ |
| Yeni Zelandiya | - | - | 1,2 | ↑ | 0,1 | ↓ |
| Polşa | - | 0.01 | 0.4 | ↑ | 0,1 | ↓ |
| İsveç | - | 0.02 | 0.4 | ↑ | 0.5 | ↑ |
| Vyetnam | - | - | 0.3 | ↑ | - | ↓ |
| Danimarka | - | - | 0.3 | ↑ | - | ↓ |
| Finlandiya | - | - | 0.2 | ↑ | - | ↓ |
| Belarusiya | - | 0.04 | 0,1 | ↑ | - | ↓ |
| Digər ölkələr | 9.8 | 0.2 | 5.7 | ↑ | 1,1 | ↓ |

***Mənbə:*** AMB məlumatları əsasında müəllif tərəfindən tərtib edilmiş cədvəl (02.02.2025), https://www.cbar.az/page-43/external-sector-statistics

Azərbaycan rezidentlərinin müxtəlif ölkələrin iqtisadiyyatına yatırdığı investisiyaların təhlili göstərdi ki, bu sahədə lider mövqedə Türkiyə dayanır. Pandemiya dövründə bu ölkəyə qoyulan investisiyaların səviyyəsi azalsa da, pandemiyadan sonra artım bərpa olunub. Ümumilikdə, 2002–2021-ci illərdə Azərbaycanın Türkiyəyə yatırdığı investisiyalar 20,1 milyard ABŞ dollarından çox olmuşdur. Təkcə 2019–2021-ci illər ərzində Azərbaycan rezidentlərinin xaricə investisiyalarının üçdə birindən çoxu bu dost ölkəyə yönəldilmişdir. İkinci yerdə Azərbaycanın investisiyalarının həcminə görə Birləşmiş Krallıq (9%), üçüncü yerdə isə Monteneqro (6,6%) qərarlaşıb. Daha sonra ABŞ, Rusiya, Malta, Avstriya, Gürcüstan və digər ölkələr gəlir. Bəzi ölkələrə yatırımların həcmi 2021-ci ildə 2020-ci illə müqayisədə ciddi şəkildə azalmışdır. Belə ki, Rusiyaya və Monteneqroya yatırımlar təxminən 3,2 dəfə, ABŞ-a isə 1,7 dəfə azalmışdır. Lüksemburq, Bəhreyn, Avstriya (təxminən 12,5 dəfə), Lixtenşteynə yönəlmiş investisiyalarda da azalma müşahidə olunmuşdur. Lakin bəzi ölkələrdə

investisiyalarda artım qeydə alınmışdır. Məsələn, 2006-cı ildən bəri Azərbaycan Gürcüstana 2,1 milyard dollar sərmayə yatırmışdır. 2021-ci ildə Gürcüstana qoyulan investisiyalar əvvəlki illərlə müqayisədə 2,5 dəfədən çox artmışdır. Təhlillər göstərdi ki, əsas problemlərdən biri hesablama metodologiyalarındakı uyğunsuzluqlardır. Məlumatların toplanması, hesablama metodologiyası, şəffaflıq və əlçatanlıq sahəsində problemlərin aradan qaldırılması və məlumatların internet resurslarında mütəmadi (aylıq) şəkildə dərc olunması zəruridir.

**4. Təhlillər göstərir ki, dövlətin həyata keçirdiyi iqtisadi diplomatiya siyasəti dövri olaraq qlobal siyasi və iqtisadi proseslərin milli iqtisadiyyata mənfi təsirini neytrallaşdırır və beynəlxalq iqtisadi əlaqələrin tənzimlənməsi istiqamətində birbaşa və dolayı tədbirlərin reallaşdırılmasını təmin edir.**

Son 20 ildə Azərbaycan iqtisadi diplomatiya sahəsində aşağıdakı istiqamətləri əhatə edən təcrübə qazanmışdır: beynəlxalq hüquqi əməkdaşlıq, iqtisadi sahədə ikitərəfli və çoxtərəfli müqavilə bazası, xarici iqtisadi və xarici ticarət fəaliyyəti, investisiya əməkdaşlığı, regional və qitəvi inteqrasiya, transmilli meqalayihələr və s. Əgər bu münasibətləri bütün səviyyələrdə qiymətləndirsək, görərik ki, 2019-cu ildə Azərbaycan 183 xarici ölkə ilə diplomatik əlaqələr qurmuş, 59 ölkədə səfirliklərə, 9 şəhərdə baş konsulluqlara, 17 ölkədə fəxri konsulluqlara, 19 beynəlxalq təşkilatda nümayəndəliklərə sahib olmuşdur. Eyni zamanda, Azərbaycanda 66 ölkənin səfirlikləri, 3 ölkənin 4 konsulluğu, 13 ölkənin fəxri konsulluğu, 21 beynəlxalq təşkilatın nümayəndəliyi fəaliyyət göstərmişdir. 2022-ci ildə Azərbaycanın diplomatik nümayəndəlikləri dünyanın 77 ölkəsində fəaliyyət göstərirdi. Hazırda Azərbaycanda 88 ölkə və beynəlxalq təşkilatın nümayəndəliyi, 15 ölkənin konsulluğu akkreditə olunmuşdur[9].

1995–2000-ci illərdə Azərbaycanda genişmiqyaslı iqtisadi islahatlara başlanılmış və bu da xarici iqtisadi siyasətdə diplomatik dəyişikliklərə səbəb olmuşdur. Bu dövrdə ikitərəfli ticarət sazişlərinin sayı sürətlə artmışdır. Lakin həmin dövrdə investisiya mühiti qonşu ölkələrlə müqayisədə hələ ilkin və zəif inkişaf mərhələsində idi. Ona

---

[9] Xaricdə nə qədər səfirlik, konsulluq və nümayəndəliklərimiz var - SAY AÇIQLANDI. –05.07.2019. [Электронный ресурс]/https://sitat.news/xaricde-ne-qeder-sefirlik-konsulluq-ve-numayendeliklerimiz-var-say-aciqlandi

görə də Azərbaycan dövləti qısa müddətdə ticarətin liberallaşdırılmasını və özəlləşdirmə proqramlarını həyata keçirərək xarici investorlar üçün əlverişli mühit yaratmağa çalışdı. Bu dövrdə Azərbaycan Avropa İttifaqı (Aİ) ilə ticarət-iqtisadi münasibətlərin qurulmasına diqqət yetirmiş, əməkdaşlıq və tərəfdaşlıq sazişinin bağlanması ilə bağlı danışıqlara başlamışdır. Azərbaycanın Aİ ilə ticarət və iqtisadi diplomatiyası həmin dövrdə qonşu ölkələrin siyasətinə oxşar idi. Qeyd edək ki, Gürcüstan və Türkiyə də bu dövrdə Aİ ilə daha sıx iqtisadi əlaqələrin qurulmasına çalışırdılar. Eyni zamanda, bu dövrdə Azərbaycan MDB ölkələri ilə ticarət-iqtisadi əlaqələrin möhkəmləndirilməsinə yönəlmiş siyasət yürütmüş və regional təşəbbüslərdə fəal iştirak etmişdir. Ölkə aşağıdakı təşəbbüslərdə iştirak etmişdir: Avrasiya İqtisadi Birliyi, MDB Azad Ticarət Zonası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı.




***Mənbə***: https://stat.gov.az/source/trade/ (02.02.2025)

**Diaqram 1. Xarici ticarət dövriyyəsinin dinamikası, milyon dollar**

Son 30 ildə imzalanmış ikitərəfli və çoxtərəfli sazişlər sayəsində Azərbaycanın xarici ticarət dövriyyəsi 8,5 dəfə, idxal 6,2 dəfə, ixrac isə 10,5 dəfə artmışdır. Göründüyü kimi, ixracın artımı

digər göstəricilərlə müqayisədə daha yüksək olmuşdur. Əgər ixracın mal strukturuna baxsaq, onun əsas hissəsinin neft və neft məhsullarına aid olduğu görünür. 1994-cü ildə bu məhsulların ixracda payı 35,5% olduğu halda, bu göstərici 2008-ci ildə ən yüksək səviyyəyə — 97,1%-ə çatmışdır. 2021-ci ildə bu rəqəm 88,4%-dək azalmışdır. Xarici ticarət saldosunu müqayisə etdikdə, 1994-cü illə müqayisədə 2021-ci ildə bu göstəricinin 43,8 dəfə artdığı müşahidə olunur. Bu, Azərbaycanın bir çox ölkələr üçün strateji tərəfdaş kimi beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadığını sübut edir. Eyni zamanda, müxtəlif iqtisadi sistemlərin qarşılıqlı əlaqəsinə yönəlmiş iqtisadi diplomatiya çoxtərəfli əməkdaşlığı nəzərdə tutur. Bu baxımdan, enerji təhlükəsizliyi məsələlərinin həllində iqtisadi diplomatiyanın əsas vəzifəsi yalnız dövlətin deyil, onun subyektlərinin məsələn, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) kimi qurumların maraqlarının qorunması və müdafiəsidir.

Müstəqilliyin ilk mərhələsində Azərbaycanın strateji iqtisadi məqsədi tələb olunan xarici investisiyaların cəlb olunması olmuşdur. 1992-ci ildən bu günədək ölkədə xarici investisiyaların qorunmasına dair 40-dan çox normativ-hüquqi akt qəbul edilmişdir. Hüquqi bazanın təhlili göstərir ki, müstəqillik aktının imzalanmasından sonra dünya ölkələri, korporasiyalar və müxtəlif təşkilatlarla ticarət-iqtisadi və digər sahələrdə əməkdaşlığa dair 450-dən çox sənəd (saziş, protokol, konvensiya və s.) imzalanmışdır. Təhlil göstərir ki, belə beynəlxalq sənədlərin imzalanması zamanı investisiya diplomatiyasının əsas istiqamətləri aşağıdakılardır: investisiya rejiminin şərtlərinə dair danışıqlar, zərərlərin kompensasiya olunması, kapital və mənfəətin sərbəst köçürülməsi, ekspropriasiya və subroqasiya məsələləri, investisiya mübahisələrinin həlli, dövlət zəmanətlərinin formaları, sığorta tədbirləri, tikintiyə icazə prosedurlarının tənzimlənməsi, torpaq sahələrinin alınması, xarici investisiyalı şirkətlərin qeydiyyat müddətləri, vergi yoxlamalarının keçirilməsi qaydaları və s. Qeyd olunmalıdır ki, bu sazişlərin, konvensiyaların və protokolların strukturu fərqlidir. Bu isə belə nəticəyə gəlməyə imkan verir ki, ikitərəfli investisiya sazişlərinin məzmunundakı əhəmiyyətli

fərqlər ölkəyə müəyyən təsir rıçaqlarını saxlamağa imkan verir. Eyni zamanda, bu sazişlər diplomatik danışıqlar üçün baza rolunu oynayır və investisiya yönümlərinin müəyyən edilməsinə istər ölkə daxilində, istərsədə ölkə xaricində milli maraqlar kontekstində təsir göstərir. Təhlil zamanı məlum olmuşdur ki, yalnız ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması sahəsində 87 normativ-hüquqi akt qəbul edilmişdir. Bunlardan 57-si Azərbaycan ilə tərəfdaş ölkələr arasında müvafiq saziş, konvensiya və protokolların təsdiqinə dair qanunlardır. Bəzi sazişlərdə 9-a qədər vergi növü nəzərdə tutulduğu halda, digərlərində cəmi 2 vergi əhatə olunur. Bu, milli investisiya diplomatiyasının fəaliyyətinin müsbət nəticəsi kimi qiymətləndirilə bilər. Lakin bir ölkə ilə razılaşdırılmış yüksək səviyyəli şərtlərin digər ölkələrlə aparılan danışıqlarda eyni dərəcədə tətbiq olunması həmişə mümkün olmur. Təhlil göstərir ki, danışıqların əsas obyektləri aşağıdakı vergi növləridir: hüquqi şəxslərin mənfəət vergisi, fiziki şəxslərin gəlir vergisi, əmlak vergisi, torpaq vergisi. Azərbaycanın Türk Dövlətləri Təşkilatına üzv olduğunu nəzərə alaraq, bu təşkilata daxil olan bütün ölkələrlə ikiqat vergitutmanın qarşısının alınması və vergidən yayınmanın aradan qaldırılması üzrə daha əlverişli şərtlərin təmin edilməsi məqsədəuyğun sayılır. Bu, təşkilat daxilində iqtisadi əlaqələrin möhkəmlənməsinə və Azərbaycanın biznes və investisiya tərəfdaşı kimi cəlbediciliyinin artmasına səbəb olar.

**5. İqtisadi diplomatiyanın milli iqtisadiyyata təsirinin qiymətləndirilməsi üzrə aparılmış tədqiqatlar göstərir ki, son 20 il ərzində Azərbaycanda effektiv iqtisadi diplomatiyanın nəticəsi olaraq ÜDM ilə xarici ticarət dövriyyəsi arasında müsbət asılılıq müşahidə olunur.**

Azərbaycan iqtisadiyyatına xarici iqtisadi amillərin təsirini təhlil etmək məqsədilə güman edilir ki, ÜDM (y) ilə ticarət dövriyyəsi (x) arasında aşağıdakı potensial (qüvvət) funksiyası şəklində hipotetik əlaqə mövcuddur:

$$y = c_1 * x_1^{c_2}\ , \qquad (1)$$

Burada $y$ - ÜDM (milyon ABŞ dolları ilə), x1 - xarici ticarət

dövriyyəsinin həcmidir (milyon ABŞ dolları ilə), $c_1, c_2$ - modelin parametrləridir.

Modelin parametrləri olan $c_1, c_2$ məlum deyil və statistik məlumatlar əsasında qiymətləndirilməlidir. Modelin qiymətləndirilməsini asanlaşdırmaq üçün (1) nömrəli tənliyi loqarifmləşdirərək aşağıdakı xətti formaya gətiririk:

$$lny = lnc_1 + c_2 * lnx_1 + \varepsilon \qquad (2)$$

Burada $c_2$ xarici ticarət dövriyyəsindəki dəyişikliklərə ÜDM-in nə dərəcədə həssas olduğunu göstərir. Başqa sözlə, xarici ticarət dövriyyəsinin 1% artması ÜDM-in orta hesabla neçə faiz dəyişəcəyini ifadə edir. Modelin təsadüfi komponenti ε modelə daxil olmayan müxtəlif amillərin birgə təsiridir. Bu tədqiqat kontekstində güman edilir ki, ε komponentinin bir hissəsi iqtisadi diplomatiyanın birbaşa ölçülə bilməyən keyfiyyət xarakterli təsirləri ilə bağlıdır. Beləliklə, iqtisadi diplomatiyanın keyfiyyət göstəricilərinin bir qismi bu təsadüfi dəyişənin vasitəsilə dolayı yolla özünü göstərə bilər.

Modelin loqarifmik formasının qurulması (2) parametrlərin qiymətləndirilməsi üçün ən kiçik kvadratlar metodunun tətbiqinə imkan yaradır. 1995–2023-cü illəri əhatə edən statistik məlumatlar əsasında aparılmış qiymətləndirmənin nəticəsində aşağıdakı model əldə edilmişdir:

$$\text{Ln(ÜDM)}=1{,}37+0{,}91*\text{Ln(Ticarət)}+\varepsilon \qquad (3)$$

Model (3)-ün əsas statistik göstəriciləri Eviews proqram paketi vasitəsilə hesablanmış və cədvəl 2.3.2-də təqdim olunmuşdur.

Model (3)-ə Aparılmış ekonometrik təhlilə əsasən müəyyən edilmişdirki xarici ticarət dövriyyəsi 1% artdıqda Azərbaycanın ÜDM-i orta hesabla 0,91% artır. Bu nəticə ÜDM ilə ticarət dövriyyəsi arasında güclü, lakin tam proporsional olmayan müsbət asılılığın mövcud olduğunu göstərir. Beləliklə, xarici ticarət dövriyyəsinin 10% artması, təxminən 9,1% ÜDM artımına gətirib çıxarır.

**Cədvəl 3**
**Reqressiya təhlilinin nəticələri**

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: LOG_GDP | | | | |
| Method: Least Squares | | | | |
| Sample: 1995 2023 | | | | |
| Included observations: 29 | | | | |
| Variable | Coefficient | Std.Error | t-Statistic | Prob. |
| C | 1.369992 | 0.298769 | 4.585455 | 0.0001 |
| LOG_TRADE | 0.911976 | 0.031372 | 29.06970 | 0.0000 |
| R-squared | 0.969038 | Mean dependent var | | 9.979927 |
| Adjusted R-Squared | 0.967892 | SD dependent var | | 1.178967 |
| SE of regression | 0.211257 | What is the info criterion? | | -0.205013 |
| Sum squared resi-dence | 1.204994 | Black standard | | -0.110717 |
| Log likelihood | 4.972690 | Hannan-Quinn Criterion. | | -0.175481 |
| F-statistic | 845.0477 | Durbin-Watson stat | | 1.903625 |
| Prob(F-statistic) | 0.000000 | | | |

***Mənbə:*** Eviews proqram paketində müəllif tərəfindən hazırlanmışdır.

Bu səbəbdən, dövlətin və onun subyektlərinin qlobal iqtisadi sistemdə strateji məqsədlərinə nail olmaq üçün iqtisadi məsələlərlə bağlı diplomatik danışıqlar çərçivəsində ÜDM ilə xarici ticarət dövriyyəsi arasındakı qarşılıqlı əlaqə nəzərə alınmalıdır.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Aparılmış tədqiqat nəticəsində aşağıdakı əsas nəticələr əsaslandırılmışdır:

1. İqtisadi diplomatiya - dövlətin, vətəndaş cəmiyyətinin və biznes dairələrinin qlobal iqtisadi sistemdə milli iqtisadi maraqların həyata keçirilməsi üzrə birgə fəaliyyətidir. Məqsəd - ölkənin və onun iqtisadi subyektlərinin beynəlxalq rəqabətqabiliyyətliliyini, imicini və statusunu artırmaqdır. Bu məqsədə çatmaq üçün diplomatik üsullarla yanaşı, iqtisadi və inzibati tənzimləmə və idarəetmə alətlərindən istifadə olunur.

2. İqtisadi diplomatiya zaman kəsiyində ya milli iqtisadiyyatın

qorunması kimi, ya da xarici siyasətin iqtisadi komponenti kimi reallaşır. Strategiyalara və xarici iqtisadi vəziyyətə uyğun olaraq istiqamətlər və mexanizmlər dəyişir. İcra edilən funksiyaların miqyası artdıqca, müvafiq institutların ixtiyarında olan alətlərin həcmi artır.

3. Azərbaycan iqtisadi diplomatiyasının effektivliyi zaman-zaman müxtəlif amillərdən və hadisələrdən - geosiyasi dinamika, qlobal iqtisadi şərtlər və daxili siyasətdən asılı olaraq dəyişə bilər. Bu sahədə vaxtında və fəal tədbirlər xarici amillərin mənfi təsirlərini minimuma endirir və davamlı iqtisadi artımı təmin edir.

4. İqtisadi diplomatiya, münaqişə vəziyyətində olan tərəflərin qlobal iqtisadi proseslərə cəlb olunması vasitəsilə çoxtərəfli münaqişələrin həlli üçün bir mexanizm rolunu oynayır. Hazırda belə münaqişələr üzrə iqtisadi məsələləri həll edə biləcək vahid beynəlxalq qurum mövcud deyildir. Buna görə bu sahənin milli və beynəlxalq səviyyədə institusionallaşdırılması və təşkilati-hüquqi mexanizmlərin hazırlanması zəruridir.

5.Diplomatik nümayəndəliklərin funksiyalarının genişləndirilməsi iqtisadi diplomatiyanın vəzifələrinin effektiv həyata keçirilməsi üçün kifayət deyildir. Milli iqtisadi maraqların təşviqi və müdafiəsi məqsədilə bu sahədə səlahiyyətli ixtisaslaşmış dövlət qurumunun yaradılması məqsədəuyğundur. Bu qurumun strateji resursların – investisiyalar, əmək resursları, innovasiyalar və s. – cəlb olunması üzrə qərarvermə səlahiyyətləri və məlumat bazasına çıxışı olmalıdır. Bundan əlavə, xarici iqtisadi fəaliyyət subyektlərinə dəstək göstərmək üçün ayrıca marketinq, təhlil, ekspertiza və xidmət strukturlarının yaradılması da vacibdir.

6. Beynəlxalq vergi sistemində terminoloji və struktur fərqlər çox zaman vergi obyektinin anlaşılmasında çətinliklər yaradır. Bəzi ölkələr gəlir vergisini vahid formada göstərir, bəziləri isə onu fiziki və hüquqi şəxslərin gəlir vergisi kimi ayırır. Terminologiyanın və vergi strukturunun beynəlxalq səviyyədə standartlaşdırılması ikitərəfli vergi sazişlərinin bağlanmasını asanlaşdırar və investisiya diplomatiyasının effektivliyini artırar.

7. Azərbaycanın bir sıra ölkələrlə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması üzrə sazişi yoxdur. Azərbaycan, Türk Dövlətləri Təşkilatının üzvü kimi, təşkilata

daxil olan dövlətlərlə, o cümlədən Qırğızıstanla bu istiqamətdə saziş bağlamağa çalışmalıdır. Bu, inteqrasiya əlaqələrinin möhkəmlənməsinə və kapitalın region daxilində sərbəst hərəkətinə töhfə verəcəkdir.

8. Aparılmış ekonometrik təhlilə əsasən belə nəticəyə gəlmək olar ki, xarici ticarət dövriyyəsi 1% artdıqda Azərbaycanın ÜDM-i orta hesabla 0,91% artır. Bu nəticə ÜDM ilə ticarət dövriyyəsi arasında güclü, lakin tam proporsional olmayan müsbət asılılığın mövcud olduğunu göstərir. Beləliklə, xarici ticarət dövriyyəsinin 10% artması, təxminən 9,1% ÜDM artımına gətirib çıxarır.

## Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə dərc edilmişdir:


1. Мехтиева, К. Теория и практика экономической дипломатии в современных условиях // - "İpək yolu" jurnalı, - 2021, №1, - s. 79-90, Bakı, Azərbaycan.
2. Мехтиева, К. Экономическая дипломатия как фактор реализации национальных экономических интересов // - "ipək yolu" jurnalı, - 2022, №1, - s. 22-27, Bakı, Azərbaycan.
3. Мехтиева, К.И. Воздействие ресурсного потенциала на экономическую дипломатию Азербайджана // "Gənc Tədqiqatçı" jurnalı, - 2022, №2, - s. 275-287, Bakı, Azərbaycan.
4. Мехтиева, К. Влияние Институтов Экономической Дипломатии Азербайджана на Развитие Страны // "İqtisadi Artım və İctimai Rifah" jurnalı, - 2023, №1, - s. 105-115, Bakı, Azərbaycan.
5. Mehdieva, K.I. Promising directions of investment diplomacy of Azerbaijan // - "Future Human Image" journal, - 2023, №20, s. 97-111. http://www.fhijournal.org/20-9/ , Ukraine.
6. Mehdieva, K.I. Use of the double taxation elimination mechanism in investment diplomacy // I International Sientific and Practical Cjnference "Modern science: actual problems", Manchester, UK: - 24-25 January, - 2023, - s. 8-12.

DOI:https://doi.org/ 10.5281/zenodo.7576600

7. Mehdiyeva, K.İ. Azərbaycanin vergi sahəsində iqtisadi diplomatiyasi: realliq və perspektivlər // II Respublika Elmi Konfransı, Azərbaycan elm mərkəzi, "Elmi tədqiqat beynəlxalq onlayn elmi" jurnalı, - 2023, - s. 18-21, Bakı, Azərbaycan. DOI: https://doi.org/10.36719/2789-6919/2023/II
8. Мехтиева, К.И. Последствия экономической дипломатии на развитие конкурентоспособности национальной экономики // Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər" mövzusunda Mingəçevir Dövlət Universitetinin II Beynəlxalq Elmi Konfransı, - Mingəçevir, Azərbaycan: - 2023, - s. 279-280



Dissertasiyanın müdafiəsi 26 sentyabr 2025-ci il tarixində saat $15^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin resmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 12 iyul 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 30.06.2025.

Kağızın formatı: A5

Həcmi:40465 işarə

Tiraj: 30.